**"TƏSDİQ OLUNUB"**
Azərbaycan Respublikası Gənclər və İdman Naziri
__________ A. Rəhimov
"____" ________ 2010 – cu il.

**"RAZILAŞDIRILIB"**
Azərbaycan Şahmat Federasiyasının prezidenti
__________ E. Rüstəmov
"____" ________ 2010 – cu il.

16 YAŞADƏK RESPUBLİKA ŞAHMAT OLİMPİADASININ

# ƏSASNAMƏSİ

### *I. Məqsəd və vəzifələr*

- Azərbaycanda şahmatı daha da populyarlaşdırmaq;
- Şahmatçıların təsnifat dərəcələrinin artırılması;
- Avropa və Dünya birinciliklərinə hazırlıq;

### *II. Yarışın keçirilməsinə rəhbərlik*

Yarış Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin 2010 – cu ildə idman növləri üzrə nəzərdə tutulmuş tədbirlər planına əsasən Gənclər və İdman Nazirliyi, Azərbaycan Şahmat Federasiyası və Təhsil Nazirliyi tərəfindən birgə keçirilir.

### *III.Keçirilmə yeri və vaxtı*

Yarış 09 iyul (gəlmə günü) – 19 iyul (getmə günü) 2010 – cu il tarixdə Zaqatala şəhəri Olimpiya kompleksində keçiriləcəkdir.

### *IV.İştirakçılar və keçirilmə qaydaları*

Yarışa Azərbaycan Respublikasının bütün şəhər və rayonlarının, eləcə də, İdman Cəmiyyətləri və Şahmat məktəblərinin oğlan və qız şahmatçıları dəvət olunurlar. Olimpiada iki qrup üzrə keçirilir. A qrupunda 1994 – 1997 - ci il, B qrupunda isə 1998 – ci il və daha kiçik təvəllüdlü şahmatçılar iştirak edə bilərlər. Yarış İsveçrə sistemi ilə 10 turdan ibarət olaraq keçirilir və şəxsi – komanda xarakteri daşıyır. Hər qrupda iştirak edəcək komandanın tərkibi 4 (dörd) şahmatçı və 1 məşqçi - nümayəndədən ibarətdir. Hər bir şəhər və rayon yarışa istənilən sayda komanda və şəxsi şahmatçı buraxa bilər. Aşağı yaş qrupunun iştirakçılarından Avropa və Dünya çempionatlarının, sonuncu Azərbaycan Birinciliklərinin mükafatçıları yuxarı yaş qrupunda çıxış edə bilərlər.

### *V.Qaliblərin müəyyənləşməsi və mükafatlandırılması*

Komanda hesabında qaliblər hər komanda üzvlərinin topladığı xalların cəmi ilə təyin edilir. Bundan əlavə, yarışın ümumi qalibləri 8, 10, 12, 14 və 16 yaşadək qruplar üzrə müəyyənləşdirilir. Yarışın reqlamenti və xallar bərabər olduqda qaliblərin müəyyən edilməsi kriteriyaları yarış başlanan gün elan ediləcəkdir. Komanda hesabında və yaş qrupları üzrə I – III yerləri tutan şahmatçılar Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Şahmat Federasiyası və yerli sponsorların Fərman, Diplom və mükafatları ilə təltif olunurlar. Olimpiadanın yekun nəticələrinə görə 16 yaşadək Ümumdünya Şahmat Olimpiadasında çıxış edəcək Azərbaycan milli komandasının tərkibi müəyyən ediləcək.

### *VI.Sifarişlər və maliyyələşdirmə*

Hər bir idmançının şəxsiyyəti təsdiq edən sənədi olmalıdır. Yarışa ezam olunan komandaların ezamiyyə xərcləri onları ezam edən təşkilatlar tərəfindən ödənilir. **Yarışda iştirak edən hər bir komanda şahmatçıların soyadı, adı və atasının adı, idman dərəcəsi və təvəllüdü göstərməklə vahid formada Sifarişi 01 iyul 2010-cu il tarixdən gec olmayaraq (əks təqdirdə şahmatçılar yarışa buraxılmayacaq) aşağıdakı mail adreslərinə yollamalıdırlar.**

**azerbaijanchess@yahoo.com**, **info@chess.az**, **bay@mail.ru**

*Məlumat almaq üçün tel :*

*465 65 47 (Gənclər və İdman Nazirliyi ), 493 38 41 ( AŞF ) 567 61 94 ("Təhsil" RİM).*

**"Ə S A S N A M Ə" YARIŞA RƏSMİ DƏVƏTNAMƏ HESAB OLUNUR.**